DÜNYA XƏBƏRLƏRİ

# Odessaya hücumda bir nəfər ölüb. Soçidə neft bazası yanıb

indicə



Odessaya hücumun fəsadları

Rusiya ordusu Odessa vilayətinə kütləvi hücum edib. Vilayət administrasiyasının rəhbəri **Oleq Kiper**in sözlərinə görə, bir nəfər ölüb, beş nəfər xəsarət alıb.

Çoxmərtəbəli yaşayış binalarına zərbələr nəticəsində bir kişi ölüb, üç qadın xəsarət alıb.

Fərdi yaşayış evlərinə, ikimərtəbəli qeyri-yaşayış binasına, şəxsi və xidməti nəqliyyat vasitələrinə ziyan dəyib. Bir kişi və yetkinlik yaşına çatmayan uşaq xəsarət alıb.

Dnepropetrovsk vilayəti isə ötən gecə dron və artilleriya hücumlarına məruz qalıb. İki polis əməkdaşı həlak olub, biri yaralanıb.

Ukrayna dronları isə Soçiyə və "Sirius" federal ərazisinə hücum edib. Neft bazasında yanğın başlayıb, şəhərin səmasını qara tüstü örtüb, aeroport bir neçə saat fəaliyyətini məhdudlaşdırıb. Monitorinq kanalları Sterlitamakdakı neft bazasına da hücum olduğunu bildiriblər.

Krasnodar diyarının əməliyyat qərargahı Soçiyə hücumun dəf edildiyini açıqlayıb. İnsan tələfatının olmadığı açıqlanıb. Monitorinq kanalları şəhərdə "Lukoyl" və ya "Rosneft" şirkətinə məxsus neft bazasının vurulduğunu yazırlar. "Astra" nəşrinin məlumatına görə, söhbət "Rosneft-Kubannefteprodukt" neft bazasından gedir.



**Нефтебаза «Роснефти» горит в Сочи после атаки БПЛА, — OSINT-анализ ASTRA**

В ночь с 3 на 4 сентября ВСУ атаковали нефтебазу «Роснефть-Кубаньнефтепродукт» в Адлерском районе, выяснил OSINT-аналитик ASTRA, проанализировав кадры очевидцев.

На фото есть и второй очаг пожара — ранее ASTRA установила, что под Сочи в результате атаки горит дивизион ПВО.

Мэр Сочи Андрей Прошунин также подтвердил пожар на нефтебазе. Жертв удалось избежать, добавил он.

📷 ***Прислать фото/видео/информацию:** @helloastrabot*

✦ ***Для продолжения работы ASTRA важны даже самые минимальные, но регулярные донаты читателей:** Patreon, Крипта,*

Dronlar Başqırdıstandakı Sterlitamak şəhərinə də hücum edib. Ufa hava limanı da uçuşları müvəqqəti dayandırıb.

Rusiya Müdafiə Nazirliyi ötən gecə Ukraynaya məxsus 490 dronun məhv edildiyini açıqlayıb. Moskva meri **Sergey Sobyanin** şəhərə yaxınlaşan 35 dronun vurulduğunu bildirib.

Dron təhlükəsinə görə Samara, Ulyanovsk, Buqulma, Kazan, Nijnekamsk, Ufa, Orenburq, Maqnitoqorsk və Krasnodar aeroportlarında, Moskvanın Vnukovo, Domodedovo və Jukovski hava limanlarında uçuşlara məhdudiyyətlər tətbiq olunub.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur